

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 155 (23.317)

22 avqust 2019-cu il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik




## Heydər Əliyev Muzeyi: zəngin irsin qorunduğu elm və mədəniyyət müəssisəsi

### Təkcə cari ilin birinci yarısında bu müəssisəni 7244 tamaşaçı ziyarət edib

*Hər bir xalqın böyüklüyü əhali sayına və yaxud yaşadığı regiona görə müəyyən edilmir. Xalqların böyüklüyü yaratdığı mədəniyyətlə, dünyaya bəxş etdiyi böyük töhfələrlə, yetirdiyi dahi şəxsiyyətlərlə ölçülür. Eyni zamanda belə xalqların formalaşmasında həmin şəxsiyyətlərin böyük rolu olur. Buna görə də hər bir xalq onun tarixində müstəsna rolu olmuş dahi şəxsiyyətlərin xatirəsini həmişə uca tutaraq onlara həsr edilmiş müxtəlif xatirə kompleksləri və muzeylər yaradır, adını park və meydan, prospekt adlarında əbədiləşdirir. Belə şəxsiyyətlərin həyatı və fəaliyyəti tədqiq edilərək mənəvi dəyərlər kimi qorunub saxlanılır, böyüməkdə olan gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması işində bu dəyərlər əsas meyar kimi təbliğ edilir. Xalqımızın tarixi taleyində mühüm və əvəzolunmaz rol oynayan ulu öndər Heydər Əliyev də məhz belə şəxsiyyətlərdəndir.*

Təsadüfi deyil ki, bu gün ölkəmizdə Heydər Əliyev irsini təbliğ edən onlarla elm və mədəniyyət müəssisəsi var. Lakin Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Muzeyi digərlərindən fərqlənir. Ona görə ki, bu mədəniyyət müəssisəsi ulu öndərimizin doğulub boya-başa çatdığı, ilk əmək fəaliyyətinə başladığı, sonrakı illərdə isə daim inkişaf etdirdiyi doğma Naxçıvan torpağında yaradılmışdır. Digər tərəfdən isə bu muzey ümummilli liderin hələ sağlığında Azərbaycanda yaradılmış ilk muzeydir.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü, siyasi irsinin alternativsizliyini dəfələrlə öz çıxışlarında vurğulayan, əməli fəaliyyətində sübut edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov hələ 1996-cı il may ayının 10-da "Naxçıvan" Sərhəd Dəstəsinin qərargahı önündə ulu öndərin büstünün açılış mərasimində demişdir: **"...Bu gün biz, sadəcə olaraq, öz istəyimizi, məhəbbətimizi və onun gördüyü işləri qiymətləndirmək naminə bu kiçik işləri burada, Naxçıvan Muxtar Respublikasında həyata keçiririk... Dünya siyasət məktəbində, dünya kəşfiyyat məktəblərində böyük bir Heydər Əliyev kursu keçilir. Nəyə görə bizim özümüzdə bunlar olmamalıdır?.. Ancaq biz etməliyik. Bizim – naxçıvanlıların buna daha çox haqqı var. Haqqı var, həm də mənən borclarıdır. İnsanlara sağlığında qiymət vermək lazımdır..."**

Heydər Əliyev şəxsiyyətinə, siyasi və mənəvi irsinə bu cür yanaşmanın nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il 18 fevral tarixli Sərəncamı ilə Naxçıvan şəhərində Heydər Əliyev Muzeyi yaradılmışdır. Eyni zamanda bu sərəncamın imzalanması Heydər Əliyev şəxsiyyətinə sonsuz ehtiramın bariz nümunəsi kimi tarixi, siyasi və mənəvi zərurətdən irəli gəlmişdir. Sərəncamın imzalanmasından ötən qısa zamanda Naxçıvan şəhərinin mərkəzində Heydər Əliyev Muzeyi yaradılmış və muzey 1999-cu il mayın 10-da fəaliyyətə başlamışdır.

Bu il isə Heydər Əliyev Muzeyinin yaradılmasının 20 ili tamam olur. Ötən illər ərzində muzeyə gələn çoxsaylı tamaşaçılar Türk dünyasının böyük oğlu, dünya siyasətinin nəhənglərindən olmuş Heydər Əlirza oğlu Əliyevin həyatı və fəaliyyəti haqqında maraqlı məlumatlar əldə edir, bu məlumatlarla yanaşı, həm də Azərbaycanın tarixini, mədəni və mənəvi irsini öyrənirlər. Əvvəlki dövrlərdə olduğu kimi, bu ilin birinci yarısında da muzey fəaliyyətini günün tələbləri səviyyəsində qurmuş, nəzərdə tutulmuş tədbirlər müvəffəqiyyətlə yerinə yetirilmişdir.



Muzeyin direktoru Ramil Orucəliyev bizimlə söhbətində bildirdi ki, bəhs olunan dövrdə Heydər Əliyev Muzeyində dahi şəxsiyyətin həyatı və ictimai-siyasi fəaliyyətinə dair materialların toplanması, komplektləşdirilməsi, mühafizəsi, tədqiq və təbliği uğurla həyata keçirilmiş, hər bir eksponat ciddi mühafizə edilərək qorunmuş, zədələnməsinin və korlanmasının qarşısı alınmışdır. 2019-cu ilin ilk 6 ayı ərzində eksponatların sayı 4746-dan 4764-ə çatdırılmışdır. Bununla yanaşı, muzeyin fond otağı sistemləşdirilmiş, eksponatlar müəyyən sistem əsasında fondda yerləşdirilmişdir. Mütəmadi olaraq buradakı bələdçi mətninə yeni eksponatlar haqqında əlavələr olunmuş, sonradan mətn ingilis dilinə tərcümə edilmişdir.

Öyrəndik ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq hesabat dövründə qrafik əsasında muxtar respublikada fəaliyyət göstərən nazirlik, komitə və baş idarələrin kollektivləri muzeyi ziyarət etmiş, gələn qonaqların muzeylə tanışlığı zamanı onlara nümunəvi muzey xidməti göstərilməsi diqqət mərkəzində saxlanılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən tərtib edilmiş qrafikə əsasən 2019-cu ilin altı ayı ərzində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 8 təşkilat Heydər Əliyev Muzeyində ekskursiyalarda iştirak etmişdir.

Müsahibimiz onu da qeyd etdi ki, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Təhsil nazirliklərinin birgə təsdiq etdiyi "Təhsil və mədəniyyət müəssisələrinin qarşılıqlı fəaliyyətinin səmərəli təşkili ilə bağlı 2018-2019-cu tədris ili üçün tədbirlər planı"na əsasən tələbə və şagirdlər Heydər Əliyev Muzeyinə cəlb edilmiş, Naxçıvan şəhərində fəaliyyət göstərən orta və orta ixtisas məktəblərinin muzeydə açıq dərslərinin qrafiki təsdiq edilmiş, onlara muzey xidməti göstərilmişdir. Görkəmli dövlət xadiminin həyatı və ictimai-siyasi fəaliyyətinin öyrənilməsi və təbliği məqsədilə 3 yanvar 2019-cu il tarixdən 27 iyun 2019-cu il tarixədək Heydər Əliyev Muzeyində orta məktəb şagirdlərinin iştirakı ilə 33 saat, Heydər Əliyev adına Hərbi Liseyin kursantları ilə 6 saat, kollec tələbələrinin iştirakı ilə 13 saat açıq dərs keçilmişdir. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında " 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Mədəniyyət, Təhsil, Rabitə və Yeni Texnologiyalar nazirliklərinin birgə tərtib etdikləri "Təhsil müəssisələri ilə muzeylər arasında 2018-2019-cu tədris ilində təşkil olunacaq distant dərslərin qrafiki"nə əsasən ümumtəhsil məktəbləri ilə Heydər Əliyev Muzeyi arasında 10 may 2019-cu il tarixdə 220 ümumtəhsil məktəbinin iştirakı ilə "Heydər Əliyev və müstəqil Azərbaycan", 12 iyun 2019-cu il tarixdə isə Təhsil və Rabitə və Yeni Texnologiyalar nazirliklərinin birgə təşkilatçılığı ilə muzeydə 220 ümumtəhsil məktəbinin iştirakı ilə "Qurtuluşdan başlanan yol" mövzusunda interaktiv dərs keçilmişdir.

Qeyd edilən dövrdə muzeyin yaradılmasının 20 illiyinə həsr olunmuş tədbirin, o cümlədən ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş konfransın, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının təşkilatçılığı ilə "Milli Qurtuluş Günü – əbədi müstəqilliyə açılan qapı" mövzusunda elmi-praktik konfrans keçirildiyi barədə də məlumat aldıq. Muzey direktoru bələdçilərin peşə biliklərinin artırılması sahəsində görülən işlərdən də danışdı.

Təbii ki, görülən işlər ziyarətçi sayına da öz təsirini göstərmiş, 2019-cu ilin ilk altı ayı ərzində muzeyi 7244 tamaşaçı ziyarət etmişdir. Bu ziyarətçilərin 5353 nəfəri yerli, 1891 nəfəri isə xarici ölkələrdən gələn qonaqlar olmuşdur. Həmçinin muzeydə olan tamaşaçılara Azərbaycan və ingilis dillərində 759 ekskursiya keçirilmişdir.

*Heydər Əliyev Muzeyi bu gün Naxçıvana gələn bütün qonaqların ilk ziyarət etdiyi elm və mədəniyyət müəssisəsidir. Dahi şəxsiyyətin zəngin irsinin qorunub saxlanıldığı bu müəssisə ziyarətçilərdə böyük təəssürat oyadır. Bu təəssüratları muzeyin "Xatirə kitabı"na köçürənlər də az deyil. Biz isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin muzeyin ekspozisiyası ilə tanış olduqdan sonra düşüncələrini ifadə etdiyi bu cümlələrlə yazını bitirmək istərdik:* ***"...Ulu öndər Heydər Əliyev öz doğma Vətənini – Naxçıvanı çox sevirdi. Naxçıvanlılar da həmişə onu sevirdilər və fəxr edirlər ki, dünyaya Heydər Əliyev kimi dahi şəxsiyyəti bəxş etdilər. Bu gün Heydər Əliyev bizim qəlbimizdə yaşayır, onun ideyaları, siyasi kursu yaşayır və əbədi yaşayacaqdır".***

Səbuhi HƏSƏNOV

## Muxtar respublikanın hava nəqliyyatında nümunəvi xidmət təşkil olunub

*Naxçıvan Beynəlxalq Hava Limanında "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin və Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin təşkilatçılığı ilə muxtar respublikanın hava nəqliyyatında nümunəvi xidmətin təşkili ilə bağlı keçirilən tədbiri agentliyin direktoru Arif Məmmədov açıb.*

Bildirilib ki, bu gün Naxçıvan Beynəlxalq Hava Limanından yerli hava xətləri ilə Bakı şəhərinə, beynəlxalq hava xətləri ilə isə Moskva və İstanbul şəhərlərinə uçuşlar həyata keçirilir. Uçuşlar dünyada istismar olunan müasirtipli hava gəmiləri vasitəsilə yerinə yetirilir. Hava nəqliyyatının inkişafı və hava daşımalarının müasir tələblər səviyyəsində qurulması üçün ardıcıl tədbirlərin görülməsi, uçuşların təhlükəsizliyini artırmaq məqsədilə alınmış yeni maşın və mexanizmlərin yüksək texniki göstəricilərə malik olması sərnişinlərə nümunəvi xidmət göstərməyə imkan verir.



Qeyd olunub ki, muxtar respublikada həyata keçirilən genişmiqyaslı quruculuq işləri Naxçıvan Beynəlxalq Hava Limanını da əhatə edib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən Naxçıvan Beynəlxalq Hava Limanı üçün yeni uçuş-enmə zolağının inşası artan yük və sərnişindaşıma tələbatının ödənilməsinə, eləcə də muxtar respublikada mülki aviasiya sahəsində işlərin uğurla həyata keçirilməsinə şərait yaradacaqdır.

Vurğulanıb ki, Beynəlxalq Mülki Aviasiya Təşkilatının qəbul etdiyi qərara əsasən avqustun 15-dən etibarən Naxçıvan Muxtar Respublikasının Türkiyə üzərindən birbaşa hava dəhlizi açılıb. Yeni hava dəhlizinin açılması muxtar respublika üçün bir çox cəhətdən əhəmiyyətlidir. Naxçıvan Muxtar Respublikasının bu hava dəhlizi vasitəsilə Türkiyə üzərindən beynəlxalq dəhlizlərə çıxışı təmin ediləcək, beynəlxalq reyslər həyata keçirilərkən vaxta və yanacağa qənaət olunacaq. Bütün bunlarla yanaşı, Türkiyə üzərindən yeni hava dəhlizinin açılması gələcəkdə yeni beynəlxalq reyslərin təşkilinə və muxtar respublikanın turizm imkanlarının daha da genişlənməsinə töhfə verəcəkdir.

Sonra Azərbaycan Respublikası mülki aviasiyasının inkişafında uzunmüddətli məhsuldar fəaliyyətinə görə Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənsur Gülməmmədli mülki aviasiya sahəsinin fəxri "Şərəf nişanı" və pul mükafatı ilə təltif edilib.

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin vitse-prezidenti İlham Əmirov və Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin direktoru Arif Məmmədov Mənsur Gülməmmədlini bu münasibətlə təbrik edərək ona fəaliyyətində uğurlar arzulayıblar.

Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənsur Gülməmmədli əməyinə verilən yüksək qiymətə görə minnətdarlıq edib.

Nail ƏSGƏROV

# "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası üçün müasir xidmət şəraiti yaradılıb

***Azərbaycan Respublikası Sərhəd Qoşunlarının formalaşmasında ümummilli liderimizin siyasi fəaliyyətinin 1990-1993-cü illəri əhatə edən Naxçıvan dövrü müstəsna əhəmiyyətə malikdir. Bu dövrdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda ilk milli sərhəd qurumları yaradılmışdır.***



Ümummilli liderimiz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən cəmi dörd gün sonra, 1991-ci ilin sentyabr ayının 7-də Dövlət Müdafiə Komitəsinin yaradılması barədə qərar qəbul etmişdir. Bununla da, Azərbaycanda vahid komandanlığa tabe olan ilk milli ordunun əsası qoyulmuşdur. Həmin vaxt Naxçıvandakı sərhəd dəstəsinin əmlakının, silah və sursatının tamamilə Azərbaycan sərhədçilərinə təhvil verilməsi işi də ölkəmizin milli maraqlarına uyğun şəkildə həll olunmuşdur. 1992-ci il avqust ayının 22-də Naxçıvandakı 41-ci sərhəd dəstəsi Azərbaycanın tabeliyinə keçmiş və sərhəd dəstəsində ilk dəfə müstəqil Azərbaycanın üçrəngli bayrağı qaldırılmışdı. Rusiya Sərhəd Qoşunları Baş Komandanlığı və Zaqafqaziya Sərhəd Qoşunları Dairəsinin rəhbərliyi ilə aparılan danışıqların nəticəsi olaraq, 1992-ci il sentyabrın 29-da isə 41-ci Sərhəd Dəstəsi ləğv olunmuş, onun bütün hərbi və təsərrüfat əmlakı Naxçıvanda yeni yaradılmış birinci Sərhəd Dəstəsinin sərəncamına verilmiş, 215 kilometrlik sərhəd ərazisi ilk dəfə olaraq milli Sərhəd Qoşunları tərəfindən mühafizəyə qəbul edilmişdir. Ümummilli lider Heydər Əliyev bu barədə demişdir: ***"Naxçıvanın qonşu İran və Türkiyə ilə sərhədləri on illər boyu rus qoşunları tərəfindən qorunmuşdur. Biz keçmiş Sovetlər İttifaqının, sonra isə Rusiyanın burada yerləşən 41-ci Sərhəd qoşunları hissəsinin buradan tamamilə çıxıb getməsinə nail olduq və Azərbaycanda ilk dəfə olaraq milli sərhəd qoşunlarının birinci dəstəsi yaradıldı... Bütün bunlar tarixi hadisələrdir və nəinki bugünkü, həmçinin gələcək nəsillər tərəfindən layiqincə qiymətləndiriləcəkdir".***





Ölkəmizdə Sərhəd Qoşunlarının yaradılması ümummilli lider Heydər Əliyevin ali hakimiyyətə ikinci qayıdışından sonra da dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilmiş, Azərbaycan öz sərhədlərini müstəqil qorumağa qadir olduğunu nümayiş etdirmişdir. Ümummilli liderimizin yolunu uğurla davam etdirən Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dövlət sərhədlərinin mühafizəsinə və sərhədçilərə göstərdiyi böyük qayğı nəticəsində Sərhəd Qoşunları daha da möhkəmlənir. ***"Sərhəd hər bir dövlət üçün onun müstəqilliyini təcəssüm etdirən çox önəmli əlamətdir. Sərhəd müstəqillik deməkdir. Müstəqillik sərhədsiz mümkün deyil"***, – deyən ölkə başçısı Dövlət Sərhəd Xidməti ilə bağlı bir çox fərman və sərəncamlar imzalamış, normativ-hüquqi baza təkmilləşdirilmiş, maddi-texniki təminat və döyüş hazırlığı artırılmışdır. Ali Baş Komandan cənab İlham Əliyevin 2004-cü il 14 yanvar tarixli Fərmanı ilə Naxçıvan Sərhəd Dəstəsinin bazasında Sərhəd Diviziyası, 2015-ci il 17 avqust tarixli Fərmanı ilə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası yaradılmış, Naxçıvanda sərhədlərimizin mühafizəsi istiqamətində həyata keçirilən tədbirlər yeni mərhələyə qədəm qoymuşdur.

Sərhəd Qoşunlarının formalaşması və inkişafı istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bu gün də muxtar respublikamızda uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov sərhədçilər qarşısında mühüm vəzifələr qoyaraq demişdir: ***"Müasir Azərbaycan sərhədçisi universal funksiyaların icraçısıdır. O, sərhədlərin mühafizəsi ilə yanaşı, beynəlxalq terrorizmə, təxribatçı qüvvələrə, narkotik maddələrin və silah-sursatın qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa qarşı da mübarizə aparmalı, fədakarlıq göstərməlidir".***

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqət mərkəzində saxlanılır, hərbi qulluqçulara yüksək dövlət qayğısı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə muxtar respublikada sərhədlərin mühafizəsi, bu sahədə həyata keçirilən quruculuq işləri yeni mərhələyə qədəm qoymuşdur. Sovet dövründən qalan sərhəd zastavalarının yerində müasir sərhəd zastava kompleksləri tikilərək istifadəyə verilmiş, sərhədçilərin xidmət və məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılmışdır. Göstərilən diqqət və qayğı nəticəsində qərargah binası, xəstəxana, müasir tələblərə cavab verən uşaq bağçası tikilmiş, mərkəzləşmiş istilik sistemi yaradılmış, sərhədçi ailələri üçün istirahət parkı salınmış, hamam-camaşırxana kompleksi yenidən qurulmuş, çörək sexi istifadəyə verilmişdir. Bundan başqa, Şərur və Culfa sərhəd komendantlıqları, müasir tələblərə uyğun 10 sərhəd zastavası, zabit-gizir ailələri



üçün yaşayış binaları, Qaraçuq sərhəd dəstəsi tikilərək sərhədçilərin istifadəsinə verilmişdir. "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının ərazisində abadlıq işləri də görülmüş, avtomobil parkında təmir emalatxanaları, bütün anbarlar, avtomobillərin saxlanılması üçün yeni saxlanclar, qarovul və qazanxana binaları inşa edilmişdir. Bununla yanaşı, şəxsi heyətin təminat və təchizatının yaxşılaşdırılması, sərhəd zastavalarının müasir texnika və avadanlıqlarla təmin edilməsi də daim diqqət mərkəzində saxlanılır.

*"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyəti göstərilən qayğı və yaradılan şəraitdən səmərəli istifadə edərək bundan sonra da sərhədlərimizin etibarlı mühafizəsi istiqamətində qüvvə və bacarığını əsirgəməyəcək.*

***"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası***

*İstehsal müəssisələri*

# Muxtar respublikada məktəbli geyimləri və xüsusi geyim formaları kompleks şəkildə istehsal olunur

*Artıq yay tətilinin bitməsinə sayılı günlər qalıb və övladlarımıza keyfiyyətli məktəbli forması ala bilmək imkanı yaradan ünvan – "Zümrüd Geyim" Məhdud Məsuliyyətli Cəmiyyətindəyik.*

Keyfiyyətli məktəbli formasının tikildiyi bu ünvan həm də fəaliyyəti ilə muxtar respublikada alıcı rəğbəti qazanmış istehsal müəssisələrindən biridir. Lakin illər öncə bu sahədə vəziyyət tamamilə başqa idi. Övladları orta məktəbdə təhsil alan valideynlər təkcə dərslik çatışmazlığından əziyyət çəkmir, həm də geyim problemi ilə üzləşirdilər. Blokada şəraitində yaşayan muxtar respublikamız inkişaf mərhələsinə qədəm qoyduğu bir vaxtda belə bir müəssisənin yaradılması bütün ailələrə maddi və mənəvi dəstək oldu.

Müəssisənin direktoru Mehrəngiz xanım yenə iş başındadır. Onunla həmsöhbət oluruq: – Muxtar respublikada dövlətin güzəştli kreditlərindən istifadə imkanlarının təşviq edilməsi, bu mexanizmin təkmilləşdirilməsi qadınların da sahibkarlıq fəaliyyəti ilə məşğul olmalarına stimul verib.

Hazırda ümumi ərazisi 700 kvadratmetr olan müəssisəmizdə Almaniya, Yaponiya və Türkiyə istehsalı olan 70 adda ən müasir biçim, ölçü, ütü və tikiş avadanlıqları quraşdırılıb, istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilib. Yeni istehsal sahəsinin yaradılması daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsul istehsalı ilə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayıb.

Müəssisə rəhbəri deyir ki, 2010-cu ildə 560 min manat vəsait ayrılması sayəsində 2011-ci il sentyabrın 9-da gündəlik istehsal gücü 150 dəst kostyum olan müəssisənin yeni binası və kostyum istehsalı sahəsi istifadəyə verildi. Müəssisənin açılışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab





Vasif Talıbovun iştirak etməsi, tövsiyələri müəssisənin gələcək fəaliyyətinə işıq saldı. Müəssisənin kostyum istehsalı sahəsi fəaliyyətə başlayanadək bu məhsulun çox hissəsi idxal yolu ilə əldə olunurdu. Lakin yeni istehsal sahəsinin yaradılması ilə həmin məhsullara olan tələbat daxili imkanlar hesabına ödənilməyə başlandı.

Sifariş verilən xüsusi geyim formalarının kompleks şəkildə istehsal edilməsi məqsədilə 2014-cü ildə müəssisədə yeni – köynək istehsalı sahəsi yaradılıb. Bu məqsədlə biznes-plan hazırlanıb, təqdim olunub. Layihənin reallaşması üçün Sahibkarlığın İnkişafı Fondundan 165 min manat güzəştli kredit ayrılıb. Naxçıvan şəhərinin Əliabad qəsəbəsindəki Əcəmi 39 ünvanında yerləşən binada yeni istehsal sahəsi yaratmaq üçün təmir-bərpa və yenidənqurma işləri görülüb. Layihəyə uyğun olaraq ümumi sahəsi 654 kvadratmetr olan binada istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması anbarı, iaşə xidməti göstərilməsi üçün yeməkxana və inzibati otaqlar yaradılıb. Burada Yaponiya və Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Türkiyənin "Talay makina" şirkəti ilə müqavilə bağlanılıb. İstehsal gücü gündə 1000 ədəd köynək olan yeni istehsal sahəsi yaradılıb ki, bu da daxili bazarın tələbatını tamamilə ödəmə gücünə malikdir.

Mehrəngiz xanım dövlət dəstəyindən yararlanaraq ötən il yeni bir uğura da imza atıb. O bildirir ki, yeni bir istehsal sahəsi yaratmaq üçün Sahibkarlığın İnkişafı Fondundan 320 min manat güzəştli kredit ayrılıb. "Zümrüd Geyim" Məhdud Məsuliyyətli Cəmiyyəti adı altında fəaliyyətə başlayan müəssisədə gündəlik 800-1000 dəst olmaqla, alt paltarları istehsal olunur. Burada 10-15 işçi üçün də iş imkanı yaradılıb.

Sahibkar onu da deyir ki, xammal Türkiyədən gətirilir. Yeni tədris ili ilə əlaqədar təhsil müəssisələrindən qəbul edilən sifarişlər artıq təhvil verilib.

Onu da qeyd edək ki, istehsal olunan məhsullar muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində, həmçinin rayon mərkəzlərindəki mağazalarda satılır. Eyni zamanda məktəbli formaları həm də hər il olduğu kimi, builki məktəbli yarmarkasında da müştərilərə təklif ediləcək.

Müəssisədə hüquq-mühafizə orqanlarından, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən, Naxçıvan Şəhər Yaşıllaşdırma və Sanitar Təmizlik idarələrindən də sifarişlər qəbul edilir.

Onu da qeyd edək ki, hazırda müəssisədə sifarişə uyğun Naxçıvan Muxtar Respublikası Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin, eləcə də Ədliyyə Nazirliyinin Penitensiar Xidməti əməkdaşları üçün xüsusi geyim formaları tikilir.

Muxtar respublikamızda qadın sahibkarlarımız çoxdur. Bacarığı, işgüzarlığı ilə seçilən "Zümrüd Tikiş", "Zümrüd Geyim" Məhdud Məsuliyyətli cəmiyyətlərinin direktoru Mehrəngiz Əkbərovanın əməyi dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib. Müəssisə rəhbəri 2015-ci ildə Naxçıvan Muxtar Respublikasında keçirilən "Ən fəal işəgötürən" müsabiqəsi üzrə ikinci yerə sahib olub, "Biznesdə Uğur" mükafatına layiq görülüb. Bu il isə Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətinə görə, 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə "Tərəqqi" medalı ilə təltif olunub.

Bu gün həmsöhbət olduğumuz zəhmətkeş, bacarıqlı iş adamının 22 illik zəhmətinin bəhrəsi ilə bağlı söylədiklərindən və gördüklərimizdən belə qənaətə gəlmək olar ki, yaradılan şəraitdən istifadə edən hər bir sahibkar muxtar respublikamızın inkişafına öz töhfələrini verməklə yanaşı, həm ailəsinin, həm də bir çox ailələrin firavan həyat sürmələrinə şərait yarada bilər.

**✍ Ramiyyə ƏKBƏROVA**

*Babək rayonunun Kültəpə kəndində Məhəmmədəli Məmmədova məxsus süd emalı müəssisəsində südçülüklə məşğul olan ailə təsərrüfatçıları ilə birgə maarifləndirici tədbir keçirilib.*

# Maarifləndirici tədbir keçirilib

Rayon İcra Hakimiyyətinin əməkdaşı Azər Hümbətov "Ailə təsərrüfatları ili"ndə sahibkarlarla birgə maarifləndirici tədbirlərin keçirilməsinin əhəmiyyətindən, onlara yaradılan şəraitdən, göstərilən dövlət dəstəyindən danışıb.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Əyyub Abdullayev və aparıcı mütəxəssis Lalə Məmmədli südçülüklə məşğul olan ailə təsərrüfatlarında inəklərə zoobaytar qaydalarına uyğun qulluq edilməsi, süd istehsalının artırılması, süd məhsullarının hazırlanma texnologiyası və ənənəvi süd məhsullarının istehsalının təbliğ edilməsinin əhəmiyyəti ilə bağlı çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, zoobaytar və gigiyenik qaydalara vaxtlıvaxtında əməl edildikdə alınan südün keyfiyyəti və məhsuldarlığı da yüksək olur. Odur ki, bu sahə ilə məşğul olan ailə təsərrüfatlarında da mütərəqqi metodlara üstünlük verilməlidir.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin əməkdaşı İlham Seyidov ailə təsərrüfatlarına göstərilən dövlət qayğısının və maliyyə dəstəyinin əhəmiyyətindən bəhs edib.

Ailə təsərrüfatçılarını maraqlandıran suallar mütəxəssislər tərəfindən ətraflı cavablandırılıb. Tədbirin sonunda iştirakçılara maarifləndirici bukletlər paylanılıb.

**Xəbərlər şöbəsi**

# O yolçuluq, bu yolçuluq...

*Ulu Yaradanın Naxçıvana bəxş etdiyi bir möcüzə əsəri, ümidlərin, pənahların, niyyətlərin, arzuların, gerçəklərin ünvanı Əshabi-Kəhf. Neçə yüzilliklərdir, Tanrıya sığınan, niyyət və arzularının gerçəkləşməsinə ümid edən, inamı ilə pənah gətirən insanlar dəstə-dəstə axışır bu dini-mədəni abidəyə. Çünki əfsanəyə görə, vaxtilə bütpərəst hökmdarın zülmündən və təqibindən qaçan 7 nəfər buraya ümid gətirmiş, mağarada gizlənmiş və orada, təqribən, 300 illik yuxuya getmişdi. Elə ərəb dilindən tərcümədə "Mağara adamları" mənasını verən Əshabi-Kəhfin sirri-sehri də buradan başlanmışdır. Tədqiqatçılar bu müqəddəs yerin 3000 ildən artıq yaşı olduğunu bildirirlər. El arasında deyirlər ki, Əshabi-Kəhfi 7 il dalbadal ziyarət etmək Kərbəla, hətta Həcc ziyarətinə bərabərdir. Yəni həmin ziyarətgahlara gedə bilməyənlər Əshabi-Kəhfdə olmaqla bu savaba çata bilərlər. Hər il buranı yerli əhali ilə yanaşı, Azərbaycanın digər bölgələrindən və xarici ölkələrdən gələn minlərlə zəvvar, turist və qonaq ziyarət edir.*





Bəli, Yaradanın nəsibini gözəl Naxçıvanımıza yazıb Haçadağla Nəhəcir dağının arasına sığdırdığı, "Qurani-Kərim"də də adıçəkilən bu abidə müqəddəs ocaq sayılır. Hətta 70 il əsarətində yaşamağa məhkum edildiyimiz Sovet hökumətinin qadağaları da insanları bu ibadətgaha pənah aparmaqdan çəkindirə bilmədi. Həmin dövrdə də ilin bütün fəsillərində yüzlərlə insan Əshabi-Kəhfə yolçuluğa çıxırdı. Elə o zamanlar buranı ziyarət edən insanlar ibadətgaha aparan yollardan tutmuş abidənin nə vəziyyətdə olduğunu da yaxşı xatırlayarlar. Bu ziyarətgaha gedən insanlar sübhçağı evdən çıxardılar. Çünki kələ-kötür, daşlı-çınqıllı, yazdapayızda isə zığlı-palçıqlı yollar günortayadək onları ancaq mənzilbaşına çatdırırdı. Əshabi-Kəhfdə nə indiki pilləkənlər var idi, nə yorularkən istirahət etdiyimiz oturacaqlar. Nə təmizlik, səliqə-sahman bu gün gördüyümüz səviyyədə idi, nə də buradakı mədəni xidmət. İnsanlar uca bir dağın zirvəsinə sığınan ibadətgaha saatlarla, həm də böyük əziyyətlə uzaq yol qət edərək çatırdılar. Bu insanlar arasında yaşlılar da var idi, xəstələr də, uşaqlar da. "Cənnət bağı"na çıxanlar həyatlarını riskə atırdılar. Burada qurbanlıqlar harada gəldi kəsildiyindən, tullantılar hara gəldi atıldığından xoşagəlməz qoxu və mənzərə yaranırdı.

Tarixi-mədəni, dini abidələri, ziyarətgahları, məscidləri, pirləri ilə yer üzündə İslam mədəniyyətinin beşiyi kimi tanınan Naxçıvanın insanlarını da Tanrı bu diyara bəxş olunan dəyərlərin, gözəlliklərin qoruyucusu, yaşadanları olaraq yaratmışdır. Son illər muxtar respublikamızda abidələrin, ziyarətgah və məscidlərin bərpası bunun bariz nümunəsidir. Əshabi-Kəhf dini abidəsində isə ilk dəfə 1998-ci ildə ümummilli liderimiz Heydər Əliyevin tapşırıq və himayəsi ilə tikinti-abadlıq işləri görülüb. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli Qərarına əsasən bura ölkə əhəmiyyətli daşınmaz tarixi və mədəniyyət abidələri siyahısına daxil edilib. 2006-cı ildə burada "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi yaradılıb. Həmin ilin may ayında kompleksdə yenidən tikinti-abadlıq işləri görülüb. Burada maşınlar üçün dayanacaq, inzibati binalar, qonaq evi, mağazalar tikilib. Ziyarətgaha içməli su xətti çəkilib, ətrafında bağ salınıb, işıqlandırma sistemləri yenidən qurulub, zəvvarlar üçün hərtərəfli şərait yaradılıb.

Naxçıvan şəhərindən 12 kilometr məsafədə yerləşən "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə getmək istəyən çoxsaylı turistlərin, zəvvarların, qonaqların, eləcə də muxtar respublika sakinlərinin rahat gedişgəlişini təmin etmək məqsədilə yeni Naxçıvan-Əshabi-Kəhf-Naxçıvan marşrutu fəaliyyətə başlayıb. Həmin marşrut üzrə işləyən avtobuslar hər gün 2 reys olmaqla, saat $8^{30}$ və $14^{00}$-da Naxçıvan şəhərindəki avtovağzaldan Əshabi-Kəhfə, saat $12^{00}$ və $17^{00}$-da isə "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksindən əks-istiqamətə yola düşür. Sərnişin sıxlığı nəzərə alınaraq həftənin şənbə və bazar günləri dörd reys həyata keçirilir. Muxtar respublikaya gələn qonaqların bu marşrutdan səmərəli istifadə etmələri üçün "Təbriz" və "Grand" otellərinin, eləcə də "Cahan" Ticarət Mərkəzinin qarşısında avtobusların dayanacaq yerləri müəyyən olunub.

İndi illər öncəkindən fərqli olaraq bu müqəddəs ziyarətgaha gözəl, abad, geniş yollar aparır. Bu günlərdə həmin abad yollarla rahat avtobusda Əshabi-Kəhfə yolçuluğa çıxarkən yuxarıda sadaladıqlarımın hər biri yolboyu gözlərim önündə canlanırdı. Avtobusun pəncərəsindən Günəşin şüalarından parıldayan asfalt yolları, ətrafda göz baxdıqca uzanan yaşıllıqları seyr edərkən, bir də mənzil başında insanların rahatlığı üçün yaradılanların hər birini bir daha gözdən keçirərək, sadəcə, bunları düşünürəm: O illər, bu illər… O yolçuluq, bu yolçuluq…

✍ **Mətanət MƏMMƏDOVA**

---

*Yeni nəşrlər*

## Arxeoloji tədqiqatlarla bağlı monoqrafiya çapdan çıxıb

*AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev, tarix üzrə fəlsəfə doktoru, dosent Zeynəb Quliyeva, Turan Həşimova, Kamran Mehbalıyev və Elmar Baxşəliyevin həmmüəllifi olduqları "Naxçıvantəpədə 2018-ci ilin arxeoloji tədqiqatları" adlı monoqrafiya çapdan çıxıb.*

AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin qərarı ilə nəşr olunan monoqrafiyanın elmi redaktoru professor Qüdrət İsmayılzadə, rəyçiləri tarix üzrə elmlər doktoru, professor Abbas Seyidov




və tarix üzrə fəlsəfə doktoru Abuzər Ələkbərovdur.

Kitabda Naxçıvantəpə yaşayış yerində 2018-ci ildə aparılan arxeoloji tədqiqat işlərinin nəticələri ümumiləşdirilib. Arxeoloji tədqiqatlar nəticəsində Naxçıvantəpədə Eneolit dövrünün erkən və orta mərhələsinə aid tapıntılar əldə edilib.

Monoqrafiya universitet tələbələri və mütəxəssislər, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

**Xəbərlər şöbəsi**

---

# Təbiət ruhumuzu oxşayan ən təsirli əsərdir

*Təbiət qucağın açıbdır bizə,*
*Lalələr, sünbüllər çıxıbdır dizə,*
*Kaş indi baş verə elə möcüzə,*
*Yenidən qayıda məktəb illəri,*
*Arxada buraxaq qəm-nisgilləri.*

Bəli, hər birimiz böyüyüb yaşa dolduqdan sonra ömrün ötən səhifələrini vərəqlədikcə nostalji duyğuların ağuşuna düşürük, yaddaşımızın bir küncündə yığılıb qalan, bizdən heç cür ayrılmaq istəməyən xoş anlar xatirələrimizdə yenidən canlanır. Lakin bir həqiqəti gizlətmək olmur ki, daha nə ağ vərəqtək saf olan uşaqlığımız qalıb, nə hafizədə əvvəlkitək məsum duyğular, düşüncələr yaranır, nə də gözlərdə dünyanın sevinci sezilir. Öz-özünə deyirsən ki, ötən ömür sanki kinolent kimi necə də bir neçə saatın içində gəlib-keçib. Məhz bunun üçün də gərək uşaqlıq illəri elə mənalı, yaddaqalan yaşansın ki, yaşlananda xatırlamağa, yada salmağa, özündən sonra gələn nəsillərə danışmağa maraqlı xatirələr olsun...

Bu gün diyarımızda fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası Turizm Diyarşünaslıq Mərkəzi də məktəbyaşlı uşaqlara təbiəti sevdirərək yurda məhəbbət aşılamaqla həm də onlara həyatları boyu unutmayacaqları, xoş anlarla dolu maraqlı günlər bəxş edir. Ötən günlərdə mərkəzin iş prosesinə nəzər salıb balaca turizmsevərlərlə görüşərkən də bunun bir daha şahidi oluram. Əvvəlcə mərkəzin direktoru Sevda Məmmədova müəssisə haqqında qısa məlumat verir. Qeyd edir ki, 1973-cü ildə Naxçıvan şəhərində Gənc Turistlər Stansiyası kimi yaradılan müəssisə 2005-ci ildən Turizm Diyarşünaslıq Mərkəzi adı ilə fəaliyyətini davam etdirir. Məktəbdənkənar müəssisə üçün 2013-cü ildə bina yenidən qurularaq istifadəyə verilib. Burada yaradılan 12 dərnəyə 900-ə yaxın məktəbli cəlb olunub. Müəssisənin əsas məqsədi uşaqların asudə vaxtlarını maraqlı, əyləncəli keçirmələrini təmin etmək, gənc nəslə doğma diyarı sevdirmək və vətənpərvərlik hissləri aşılamaq, onları tarixi keçmişimizlə, müasir inkişafla, turizm potensialı ilə tanış etməkdən ibarətdir.

Sevda müəllimə onu da deyir ki, təşkil olunan məşğələlərdə uşaqlar təbiətin möcüzələrlə dolu sirli-sehrli aləminə yaxından bələd olur, onu öz daxili aləmində, xəyalında canlandırır və beləliklə də, təbiətin sonsuz rəngarəngliyini, füsunkar gözəlliyini anlayırlar. Mütəmadi səyahətlər, təbiət qoynunda keçirilən səyyar tədbirlər zamanı uşaqlara Naxçıvanın tarixi, mədəniyyəti, müasir inkişafı, turizm potensialı ilə bağlı ətraflı məlumatlar verilir. Bununla da onlar bizi yaşadan, sağlamlığımızın keşiyində duran, qayğı göstərən ana təbiətin, eləcə də yaşadığımız





torpağın, yurdun qədir-qiymətini bilirlər. Tədbirlər zamanı balacalara doğma diyarımızın təbiətini daha dərindən öyrənmək, sevmək, qorumaq, onun təbii sərvətlərindən daha qənaətcilliklə, səmərəli şəkildə istifadə etmək kimi keyfiyyətlər də aşılanır. Bundan başqa, mərkəzdə tariximizlə bağlı yer alan vəsaitlər, məntiqi düşüncəni artıran kitablar və bədii ədəbiyyatlar məktəblilər tərəfindən qiraət olunur. Təbii ki, bu da onların erkən yaşlardan dünyagörüşünün və mütaliə vərdişlərinin formalaşmasına köməklik edir. Sevindirici haldır ki, dərnək üzvləri də məşğələlərə, ekskursiyalara böyük həvəs və maraq göstərir, gəzintilər zamanı abidələrin maketlərini də hazırlayırlar. Bunun üçün mərkəzdə ayrıca otaq da yaradılıb və orada məktəblilərin əl işlərindən ibarət sərgi nümayiş etdirilir.

Öyrənirəm ki, tədris ilinin əvvəlindən etibarən mütəmadi olaraq mərkəzin dərnək rəhbərləri tərəfindən məktəblilərin iştirakı ilə rəngarəng tədbirlər təşkil edilir. Müxtəlif mövzularda keçirilən müsabiqə və bilik yarışlarında fərqlənən dərnək üzvlərinə hədiyyələr, fəxri fərmanlar verilib. Mərkəzdə olduğum müddətdə fəal dərnək üzvlərindən bir neçəsi ilə də söhbət etməyə imkan tapıram.

Naxçıvan şəhərindəki 11 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Səbinə Rəhimli dərnəyə yazılandan etibarən özündə təbiətə, yurda bağlılıq hisslərinin çoxaldığını deyir. Bu barədə danışır:

– Müəllimlərimiz deyirlər ki, əgər pəncərədən çölə baxarkən bayırdakı gözəllik deyil, pəncərənin ləkəsi diqqətini çəkirsə, deməli, həyatdan zövq ala bilmirsən. Bəli, yaşım çox olmasa da, bu sözlərin mənasını yaxşı dərk edə bilirəm. Bu düşüncəm məktəbdə təbiətlə bağlı keçilən dərslərdə, eləcə də məşğələlərdə formalaşıb. Onu da deyim ki, orta məktəbə qədəm qoyandan rəssamlığa həvəsim böyük olub, ara-sıra televiziyada gördüyüm cizgi film qəhrəmanlarını kağız üzərində cızma-qara etmişəm. Artıq 5 il olar ki, mərkəzin "Gənc turistlər" dərnəyinə üzv yazılmışam. Ötən müddət ərzində məşğələlərdə iştirakım sayəsində doğma diyarımın tarixini, mədəniyyətini, incəsənətini, turizm potensialını dərindən mənimsəyə bilmişəm.

Aqillər gözəl deyiblər ki, ən böyük rəssam elə təbiətin özüdür. Bu ifadənin düzgünlüyünə əmin olmaq üçün çəkilib bir guşədən ətraf aləmdə baş verənləri anbaan izləmək kifayətdir. Məncə, elə bu səbəbdən rəssamlıq sənətinin incəliklərini təbiətdə axtarmaq, ondan öyrənmək ən doğru yoldur. Səyyar məşğələlər zamanı mən də bundan lazımınca istifadə etməyə çalışıram. Gələcəkdə ən böyük arzum bacarıqlı rəssam kimi yetişərək elimin, obamın gözəlliklərini təbliğ etməkdir.

Naxçıvan şəhərindəki 4 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Xanım Xudaverdiyeva dərnək üzvləri arasında xüsusi fəallığı ilə müəllimlərinin sevimli şagirdinə çevrilib. Təşkil olunan tədbirlərdə də öz istedadı ilə seçilən Xanım həm də musiqi təhsili alır. Bununla bağlı deyir:

– Əgər dərindən düşünsək, görərik ki, qoynunda yaşadığımız ana təbiətdə bizi maraqlandıran bütün suallara cavab var. Elə musiqi sənətinin gözəlliyini, incəliyini, şirinliyini də təbiət şıltaqlıqlarında hiss etmək, duymaq olar. Axan şəlalənin şırıltısı, quşların cəh-cəh səsləri, küləyin vıyıltısı, yarpaqların xışıltısı, sanki bir ansambl xatırladır. Musiqi alətləri də məhz təbiət ərməğanlarından hazırlanır. Bəlkə də, elə buna görədir ki, səvə-səvə ifa etdiyim skripkanın hər telinə toxunduqca təbiətin incə, zərif səsini, həzin duyğusunu ruhumda hiss edirəm. Yaradıcılığa, təbiət hadisələrinə həssaslığımdan 5 ildir ki, mərkəzin "İncəsənət diyarşünaslıq" dərnəyinə üzv yazılmışam. Açıq səma altında keçirilən səyyar məşğələlər mənim üçün olduqca faydalıdır, özümə lazım olan kifayət qədər məlumat toplaya bilirəm. Doğma diyarımızın tarixini, mədəniyyətini, incəsənətini, əcdadlarımızın həyat tərzini əyani şəkildə dərindən öyrənməyimiz üçün məşğələlər olduqca önəmlidir.

*Azərbaycan təbiətinin patriarxı, akademik Həsən Əliyev deyirdi ki, təbiətə münasibətdə yubanmaq yaşamağa yubanmaqdır. Ona görə də hər birimizi ana kimi əzizləyən, qoynunda yaşadığımız təbiəti sevməyə yubanmamalı, yurdumuza bağlılıq nümayiş etdirməli, bütün bunları gənc nəslə də düzgün şəkildə aşılamalıyıq.*

✍ **Nail ƏSGƏROV**

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Bədii təfəkkürümüzün güzgüsü
# *Naxçıvan yallıları*

*Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2009-cu il 7 fevral tarixdə “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” Sərəncam imzalayıb. Həmin sərəncam xalqların, ölkələrin bir-birinə daha çox inteqrasiya olunduğu, dərin qloballaşma proseslərinin getdiyi indiki şəraitdə azərbaycanlıların milli kimlik pasportu olan xalq yaradıcılığının qorunub saxlanılması və inkişaf etdirilməsi, xalq sənəti nümunələrinin, milli mətbəxin, folklorun, milli rəqs və mahnı sənətinin geniş və sistemli şəkildə təbliğ olunması, gənc nəslə milli-mənəvi dəyərləri aşılamaq baxımından mühüm tarixi əhəmiyyət kəsb edir. Çünki hər bir xalqın varlığı onun sahib olduğu mənəvi dəyərləridir.*



Sərəncamda da qeyd olunduğu kimi, xalqımızın müstəqillik yoluna qədəm qoyduğu indiki şəraitdə xalq yaradıcılığının, əsrlərboyu yaranan mənəvi və maddi mədəniyyət nümunələrinin öyrənilməsi, ənənəvi sənət sahələrinin dirçəldilməsi, onların geniş şəkildə tədqiq və təbliğ olunması mühüm əhəmiyyət kəsb edir. Adıçəkilən sərəncamda deyilir: *“Yurdumuzun qədim sakinlərinin, əcdadlarımızın dünyagörüşünün, bədii-estetik təfəkkürünün təzahür forması olan folklorun, musiqi və rəqs sənətinin ən qədim qaynaqları eramızdan əvvəl IV-I minilliklərə aid Gəmiqaya təsvirlərində, “Avesta” və “Kitabi-Dədə Qorqud” kimi qədim qaynaqlarda öz əksini tapmışdır. Dünyanın ən qədim kollektiv ifa növlərindən olan Azərbaycan xalq yallıları xoreoqrafiya, instrumental və vokal musiqisini özündə birləşdirən nadir yaradıcılıq nümunəsidir”.*

Ən geniş yayılmış və ən qədim kütləvi xalq rəqsi olan yallı el şənliklərində, bayramlarda və toylarda ifa edilir. Yallı ölkəmizi dünyaya tanıdan, xalqımıza məxsus bütün xüsusiyyətləri, onun kimliyini, tarixini, mədəniyyətini, etnoqrafiyasını, mifoloji inanclarını aydın şəkildə çatdıran, dünənimiz və bu günümüzdən soraq verən milli rəqsimizdir. Tədqiqatçıların fikrincə, yallı rəqsdən xeyli əvvəl yaranıb. Heç şübhəsiz ki, onun yaranma tarixi əlifbanın, yazılı mədəniyyətin əmələ gəlməsindən əvvəlki dövrlərə təsadüf edib. Aparılan araşdırmalar təsdiq edir ki, ilkin yallı oyunları oda, atəşə pərəstiş dövründə formalaşıb. O, od-ocaq ətrafında toplanan mərasimlərdən ibarət olub. Sonralar isə əhalinin başlıca məşğuliyyət sahəsi olan ovçuluqla bağlı rəqs nümunələri yaranıb. Ovun, döyüşün uğurlu olmasını arzulayan, ovsuna, tilsimə arxalanan, fövqəltəbii qüvvələrə and vermək istəyənlər özlərinin bu münasibətlərini mərasimlərdə təqlid, təsvir yolu ilə ifadə etməyə çalışıblar. Yallılarda mərdlik , birlik, çağırış, sevgi və qalibiyyət hissləri xarakterizə olunur. Alimlərin fikrincə, oğuz ellərinin həyat tərzi, məişəti, dünyabaxışı “Dədə Qorqud” dastanlarında sözlə, fikirlə, yallılarda isə rəqslə, ritmik hərəkətlərlə ifadə olunub. Hər bir yallı növü də xüsusi məna və məzmun daşıyıb. Xalqımızın yaşam tərzini, adət-ənənəsini, mübarizliyini, qorxmazlığını, həmişə haqqa-ədalətə və sülhə can atmasını özündə yaşadıb. Yallılarımızın vaxtilə ovçuluq və atəşi qorumaq məqsədilə icra olunan mərasim oyunu növləri olması ilə bağlı təsvir və məlumatlara Qobustan və Gəmiqaya qayaüstü rəsmlərində, “Kitabi-Dədə Qorqud” dastanında, Nizaminin “Xosrov və Şirin” poemasında da rast gəlinir.

Azərbaycanın tanınmış musiqiçisi, rəqslərimizin mahir ifaçı və tədqiqatçısı, Xalq artisti Əminə Dilbazinin fikrincə, yallılar qədər ölkəmizi dünyaya tanıdan ikinci bir vasitə yoxdur. “Söz demədən o, xalqımıza məxsus bütün xüsusiyyətləri, onun kimliyini, tarixini, mədəniyyətini bütün millətlərə aşılaya bilir”. Görkəmli sənətkar, bu mənada, Şərur yallılarını birinci sırada görür. Bu barədə fikir söyləyənlər heç də yanılmayıblar. Çünki Şərur yallılarının tarixi, ruhi-mənəvi qaynaqları, bədii-estetik gözəlliyi, min illərin düşüncə tərzini yaşatması, rəqs



hərəkətlərinin rəmzləri, incə elementlərin izahı və öyrənilməsi, təhlil ediləsi cəhətləri haqqında deyiləsi fikirlərə bu gün də böyük ehtiyac vardır.

Rəqs sənətinin geniş yayıldığı ərazilərdən biri Naxçıvan diyarıdır. Doğma yurdumuzda ən qədim rəqs elementlərimiz bu gün də qorunub yaşadılır. Elə rəqs növlərimiz var ki, o, ancaq bu yurd üçün xarakterikdir. Naxçıvan rəqsləri birbaşa ənənələrə söykənir və müxtəlif elementləri özündə ifadə edir. Ta qədimdən bu günədək Naxçıvan toylarında mütləq yallı gedilir. Bu rəqsdə ifaçıların sayı 10-100 arası olur. Muxtar respublikamızda yallı sənəti daha çox Şərur, Ordubad və Şahbuz bölgələrində inkişaf edib. Vaxtilə bu ərazilərə məxsus yüzə yaxın yallı növündən 40-dan çoxu bu günümüzə gəlib çatıb. “Xələfi”, “Tənzərə”, “Tello”, “Nazilə”, “Çökəli”, “Üç addım”, “Şərani”, “Gülümhey”, “İki ayaq”, “Ürfanı”, “Qazı-qazı”, “Köçəri”, “Dördayaq”, “Arzumanı” yallıları bu gün də sevilərək ifa olunan rəqslərdir. Bu yallılarımız bir elin həm tarixini, həm də əcdadlarımızın həyat ritmini, sevincini, babalarımızın yertitrədən ayaq səslərini özündə yaşadır, hər kəsi Vətən uğrunda birliyə, döyüşə çağırır.

Yallı təkcə musiqi və rəqs növü deyil. O, eyni zamanda qədim oğuz-türk tarixinin başlıca möhürlərindən biri olmaqla yanaşı, xalqımızın həm də bugünkü varlığından soraq verir. Məhz bu mənəvi sərvətlərimiz ilə düşmənlərimizə də kimliyimizi, varlığımızı qürurla sübut edə bilirik.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin yallı sənəti ilə bağlı tədqiqatlar aparması, bu irsin UNESCO səviyyəsində qorunması sahəsində tədbirlərin həyata keçirilməsi, “Şərur” Xalq Yallı Ansamblının fəaliyyəti və Naxçıvanda yallı sənəti ilə bağlı məlumatlar hazırlanıb aidiyyəti üzrə təqdim olunması dediklərimizin bariz nümunəsidir. Belə ki, 2018-ci ildə Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyasında qəbul edilən qərarla “Yallı” (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri” UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilməsi biz gəncləri daha da fərəhləndirir. Burada əsas məqsəd ölkəmizin qədim və tarixi ərazisi olan Naxçıvanda yaşayan əhalinin ənənəvi mədəniyyətinə və xalq yaradıcılığına dünya miqyasında işıq salmaq, eyni zamanda bu ənənələri UNESCO səviyyəsində qorumaqdan ibarətdir. Qürurverici haldır ki, Şərur, xüsusən də “Köçəri” yallısını öz adına çıxmağa çalışan Ermənistanın “Yallı” (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri” nominasiyasına qarşı təxribat xarakterli cəhdlərinin qarşısı alınmış, növbəti dəfə bu ölkəyə layiqli cavab verilmişdir.

Naxçıvan yallıları bu qədim diyarın tarixi, etnoqrafiyası, mərasimləri, mifoloji inancları, adət-ənənələri, ifaçılıq mədəniyyəti ilə sıx bağlı şəkildə inkişaf edib. Naxçıvan əsrlərboyu istər Qafqaz, istər Yaxın və Orta Şərq, istərsə də Avropa xalqları arasında “yallıların vətəni”, “yallıların məskəni” kimi tanınıb. Məhz buna görə də Naxçıvan yallılarını “Naxçıvanın tacı” adlandıran xalqımızın ümummilli lideri Heydər Əliyev deyirdi: ***“Yallılar bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir. Yallı Azərbaycan xalqının qəhrəmanlıq, mərdlik rəmzidir, tarixidir. Bu tarixi heç vaxt unutmaq olmaz. Naxçıvan torpağında bu tarix yaşayır, inkişaf edir və örnək olaraq gələcək nəsillərə qalır”.***

*Bir sözlə, yallı dünəndən bu günə uzanan bir yoldur. Qədim rəqs – musiqi tariximizin laləli düzəngahlarından, sel udan dərələrindən keçib gələn yol! Xalqın mənəvi inkişaf yolları onun açdığı coğrafi yollardan gəlib keçsə də, mənəvi sərvətlərimiz tarixin sel və gürşadlarına qarşı daha dözümlü olub. Bəli, nəsillərdən-nəsillərə ötürülən bu folklor nümunəmiz bu gün öz əzəməti ilə xalqımızın yenilməzlik, birlik, mərdlik və qəhrəmanlıq kimi keyfiyyətlərini xarakterizə edir. Bu milli özünəməxsusluğu, mənəvi dəyərlərimizi, xalq yaradıcılığımızı, bədii təfəkkürümüzün güzgüsü olan yallıları qoruyub yaşatmalı, gələcək nəsillərə olduğu kimi çatdırmalıyıq. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***“Naxçıvanın üç incisi bizim üçün xüsusilə əzizdir: Əshabi-Kəhf, Gəmiqaya və Şərur yallıları. Biz bu inciləri qoruyub saxlamalıyıq”.***

**Nuray ƏSGƏROVA**

*Yurdumuzun nemətləri*

## Faydaları saymaqla bitməyən bitki

*Muxtar respublikamız müxtəlif dərman bitkiləri ilə zəngin bir yerdir. Elə bitkilər var ki, həyatimizdə, bağ-bağçalarımızda bitir, onları görür, bəzən bilmədən ayaqlayır, ancaq tanımırıq. Pərpərən, pərpətöyün, gəlinbarmağı, dandur kimi tanınan bu bitki qədim diyarımızda geniş yayılıb. Tarixi 4 min il bundan əvvələ gedib çıxan pərpərənin yarpaqları və gövdəsini yeməyə əlavə etməklə ondan şəfalı bitki kimi istifadə olunur.*



Orta əsrlərdə pərpərən “bəzəkli tərəvəz” adlandırılıb, onunla ilan çalması, yuxusuzluq və müxtəlif yaraları müalicə ediblər. Qədimdə digər bitkilər arasında “istifadəyə məcbur” hesab edilən bu bitkini ərəb təbibi İbn Sina ən mühüm təbii dərmanlardan biri kimi qiymətləndirirdi.

Torpaq üzərində yayılan və yaxud dik qalxan, ətirli ot bitkisi pərpərən toxumlarını torpağa səpməklə çoxalır. Toxumlar çox xırda olduğu üçün onları qumla qarışdırıb əkirlər. Cücərtilər aralarındakı məsafə 15-20 santimetr olmaqla seyrəldilir. Çiçəkləri tək-tək və ya topa halda sarı, qırmızı rəngdə olur. İyun ayında gül açan pərpərən sentyabr ayına kimi çiçəkləyir. Bu bitki yabanı şəkildə Naxçıvanın düzən və orta dağlıq sahələrində, bağ və bağçalarda yayılıb.

Ötən günlərdə yolun ortasındakı bir qarış torpaqda ot toplayan yaşlı xala ilə rastlaşdım. Yaxından baxınca pərpərən topladığını gördüm. Birdən başını yerdən qaldırıb: “Bu gün topla, sabah eyni yerdə yenə bitəcək”, – dedi. Əlində bir torba dolusu pərpərəni evə götürəcəyindən məmnun görünürdü. Həqiqətən də, yabanı pərpərən bağçalarda əkmədən yetişir, yayılır. O qədər çox bitir ki, əksər hallarda alaq otu kimi çıxarılıb atılır. Bəziləri bitkinin xeyirli bir qida ola biləcəyini düşünmürlər. Xəfif turşməzə dadı, narın səthi, körpəliyi onu fərqləndirən xüsusiyyətlərdir. Pərpərəni bişirib və qurudub qışa da tədarük etmək olur. Bu bitkinin qida vasitəsi kimi körpə zoğlarından və yarpaqlarından istifadə edilir. Mətbəxdə yetkin köklərini konservləşdirir, qayğanağa və tərəvəz salatlarına əlavə edildikdə gözəl dad verir.

Əlverişli iqlim şəraitinə malik muxtar respublikamızın, demək olar ki, bütün bölgələrində rast gəlinən pərpərənin tərkibi vitaminlər, üzvi turşular, zülallar və digər faydalı maddələrlə zəngin olduğu üçün müasir tibdə ondan geniş istifadə edilir. Həkimlərin dediyinə görə dərman vasitəsi kimi təzə yarpaqları və toxumları faydalıdır. Onun tərkibində noradrenalin maddəsi mərkəzi sinir sistemini stimullaşdırır və tonusu artırır. Yarpaqlarından zəhərli ilan və həşəratların dişləməsi zamanı antioksid maddə, qaraciyər və böyrək xəstəlikləri üçün də istifadə olunur. Pərpərənin cövhəri damaq iltihabı zamanı da müalicəvi təsirə malikdir. Parazit əleyhinə vasitə kimi istifadə edilən pərpərənin ən mühüm xüsusiyyətlərindən biri də salmonella və dizenteriyatörədici mikroblara qarşı antibakterial təsiridir. İltihablı yaraların müalicəsində təmiz yuyulmuş pərpərəni məlhəm şəklində yaranın üzərinə qoymaq tövsiyə olunur.

Gözəllik üçün də istifadə edilən pərpərəndən hazırlanan maska dərini cavanlaşdırır, qırışların daha az nəzərə çarpmasını təmin edir. Başqa yeməli və müalicə effektli bitkilər kimi, bu bitkidən də miqdarında istifadə etmək lazımdır. Arterial təzyiqi yüksəltdiyinə görə hipertoniyadan əziyyət çəkənlər, hamilə qadınlar pərpərəndən istifadədə ehtiyatlı olmalıdırlar.

Naxçıvan kulinariyasında çox istifadə edilən pərpərənin hazırda mövsümüdür. Ondan turşu, qatıqlı salat hazırlanır. Pərpərəni çiy olaraq salatlara qarışdırıb yemək faydalı hesab olunur. Qumlu torpaqda yaxşı inkişaf edən pərpərən bəzək bağçılığında da geniş istifadə olunur.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Rayon turniri başa çatıb

*Culfa Rayon Mərkəzi Stadionunun qaçış zolağında yeniyetmə paralimpiyaçılar arasında yüngül atletika qaçış növü üzrə rayon turniri keçirilib.*

Culfa Rayon Gənclər və İdman İdarəsi, Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının rayon bölməsi və Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilən turnirdə idmançılar 100 metr məsafəni qət etməyə çalışıblar.



Yekun nəticəyə əsasən qalib adını Sərxan İsmayılov qazanıb. Cəlal Mürsəlli və Turan Nağıyev isə finiş xəttini ikinci və üçüncü olaraq başa vurublar.

Sonda qalib və fərqlənən idmançılar diplomlarla təltif ediliblər.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 560